

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# MÜDRİKLİYİN QƏLƏBƏSİ

Bədii söz ustalarının tənqidçi, ədəbiyyatşünas, filosof, tarixçi, pedaqoq, hətta psixoloq kimi fikir söyləməsi, bu elm sahələrinin birinə meyl etməsi dünya ədəbiyyatında heç də nadir hadisə deyil. Puşkinin, Dostoyevskinin, Qorkinin, Stendalın, Hüqonun, M.F.Axundzadənin, S.Vurğunun, M.İbrahimovun, M.Hüseynin, M.Cəlalın, R.Rzanın, Ç.Aytmatovun, B.Vahabzadənin, Ananın, Elçinin şəxsində bunun bariz nümunəsi ilə qarşılaşırıq. Bəzən ”ikinci” fəaliyyət sahəsi birinci ilə müvazi olaraq yanaşı addımlayır. M.F.Axundzadə realist nəsrimizin, dramaturgiyamızın və fəlsəfi fikrimizin inkişafında nə qədər önəmli rol oynamışsa, onun professional tənqidimizin banisi kimi də fəaliyyəti, Ü.Hacıbəylinin, M.Rəfilinin, S.Vurğunun, M.Cəlalın, M.İbrahimovun, R.Rzanın, B.Vahabzadənin bədii ədəbiyyata dair fikir və mülahizələri onları həm də tənqidçi kimi qəbul etməyə əsas vermirmi? Mehdi Hüseynin simasında isə biz əsil tənqidçi obrazı ilə də qarşılaşmırıqmı? Bu fikri çəkinmədən müasir yazarlarımızdan Anar və Elçin haqqında da söyləyə bilərik.

Maraqlı burasıdır ki, ədəbi tənqidin mahiyyəti, bir yaradıcılıq sahəsi kimi hansı özəl xüsusiyyətləri ilə seçilməsi haqda ən orijinal fikirləri də məhz bədii söz ustaları söyləmişlər. Məsələn, A.S.Puşkin yazırdı: ”Tənqidin vəziyyəti öz-özlüyündə bədii ədəbiyyatın savadlılıq dərəcəsini əks etdirir”. Puşkinin tənqid haqqında söylədiyi bu fikri də dəqiqliyi ilə seçilir: ”Tənqid-incəsənət və ədəbiyyat əsərlərində gözəlliyi və qüsurları kəşf edən elmdir. O, sənətkarın öz əsərində rəhbər tutduğu qaydaları kamil şəkildə bilməyə, nümunələri dərindən öyrənməyə və ən görkəmli müasir hadisələrin əməli müşahidəsinə arxalanır”. Başqa bir rus yazıçısı A.Tolstoy isə öz fikrini obrazlı şəkildə belə ifadə etmişdi: ”Tənqidçinin vəzifəsi, əlyazmasını əlinə alan və sətirlər arasında gizlənən enerjini səhnədə konkret obrazlarda - tamaşa zalı qarşısında açan rejissorun vəzifəsinə yaxındır”. M.Qorkinin fikirlərinə diqqət yetirək: ”Tənqidçi yazıçının diqqətini cəlb eləmək üçün ondan da istedadlı olmalı, öz xalqının tarixini, adət-ənənələrini yazıçıdan gözəl bilməli, bir sözlə, intellektual cəhətdən ondan yüksəkdə durmalıdır”. Nəhayət, böyük şairimiz Səməd Vurğunun ədəbi tənqid haqqında söylədiyi bu fikri də xatırlayaq: ”Bizim tənqidçilərimiz filosof olmalıdır. Ədəbiyyatda ayrı-ayrı zahiri faktlardan yapışmaq deyil, onun böyük daxili mənasında yaşayan tarixi motiv, arzu və əməllərdən, istək və diləklərdən, ideyalardan yapışmalıdır. Tənqidin ruhu ədəbiyyatımızın proqressiv axını ilə üzvi surətdə yaşamalıdır”.Bu misalların sayını istənilən qədər artırmaq olar.

Azərbaycan ədəbiyyatımızda bədii söz ustalarının şeir, sənət, ümumən ədəbiyyat haqqında fikir və mülahizələri təbii ki, onların əsərlərində ifadə olunub və bu əsrlər boyu bir ənənə halını alaraq klassik ədəbi tənqidin mühüm bir hissəsini təşkil edib. Sadəcə olaraq, belə bir faktı vurğulayaq ki, ”şair-tənqidçilər”in ədəbiyyat haqqında, xüsusən, şeir sənəti barədə düşüncələri onların yaradıcılıq təcrübəsi ilə sıx bağlı olmuşdur. Onlar daha çox SÖZÜN, MƏNANIN GÖZƏLLİYİ VƏ ƏBƏDİLİYİ haqda fikir söyləmiş, bu fikirlərinə müxalif olan müasirlərini tənqid etmişlər. Bəli, klassik sənətkarların SÖZ UĞRUNDA MÜBARİZƏsini bütün ötən əsrlər boyu izləmək olar əsrlər və bu mübarizənin özü də ədəbi tənqidin fəallığını xeyli dərəcədə artırmışdır. Bu mübarizə bir neçə motiv üzərində qurulmuşdu.

Birinci motiv: Məddahlığın, asılılığın pislənməsi.

XII əsrin böyük söz ustadı Xaqaninin ”Meratos-Səfa” əsərində fars şairi Ünsüriyə (970-1039) həsr edilmiş bir şeiri bu baxımdan çox maraqlıdır. Ünsüri Sultan Mahmud Qəznəvinin himayəsində yaşamış, Məliküşşüəra vəzifəsinə qədər yüksəlmişdi. Xaqaninin fikrincə, o, Rudəkinin poetik ənənələrinə sadiq qalsa da, formaca mürəkkəb, məzmunca darıxdırıcı, oxucunu cəlb etməyən, düşündürməyən əsərlər yazmışdır. Bu əsərlər Xaqanini təmin etməmiş və Ünsürini tənqid hədəfinə çevirmişdi:

*Kinayə edib söylədin, Xaqani,*
*Şeirlər yazırdı rəvan Ünsüri.*

*Bəli, eylə bir şaha məddah idi*
*Ki, oldu belə kamiran Ünsüri.*

*Qəzəl yazdı ay üzlü yar eşqinə;*
*Olub şahlara mədhxan Ünsüri.*

*Qəzəl, mədhdən başqa öz təğini*
*Daha etmədi imtahan Ünsüri.*

*Şeirdə bu sehri ki, mən etmişəm,*
*Bunu etməmiş heç zaman Ünsüri.*

*Mənim şeirimin tazə üslubu var,*
*Qədim səpki bildi haman Ünsüri.*

Orta əsr şairlərinə xas olan bir xüsusiyyət - öz şairlik qüdrətini hamıdan üstün tutmaq, tərəf-müqabilini məddahlıqda təqsirləndirmək Xaqanidən yan keçməmişdir. Xaqani doğru bildiyi həqiqətlərə üz tuturdu, hərçənd ki, onun özü də Şirvanşahları mədh edən qəsidələr yazdı, səhvini isə sonralar acılıqla dərk elədi. Bir şeirində yazırdı ki: ”Əvvəllər şahları mədh etdiyimçün, Dilim bulanmışdı çirkaba bütün”.

İkinci motiv: Şair şəxsiyyəti və Şair azadlığı haqqında poeziyamızda ilkin olaraq geniş miqyasda söz açan məhz Xaqani olmuşdur. Doğrudur, bir az öncə qeyd etdiyimiz kimi, onun qəzəl və qəsidələrində külli miqdarda özünü söz dünyasının padşahı kimi təqdim edən parçalara rast gəlirik. Lakin bunu özünü mədh etmək, hamıdan-bütün şairlərdən uca tutmaq kimi anlamaq yanlış olardı.

*Haqqım var, fəxr edəm, qoy bilsin əyyam,*
*Mən söz dünyasının padişahıyam*

Yaxud:

*Şairlərin ucasıyam, qəlbim şeir sultanıdır,*
*Nə vardırsa ürəyimdə fazillərin ehsanıdır*

Yaxud:

*Allah məni qaldırmışdır,*
*könlüm göyü dolaşmışdır,*
*Mənim əzmim bu dünyanın*
*o tayına yol açmışdır -*

deyən Xaqani əslində, üzünü dövrünün şahlarına tuturdu, demək istəyirdi ki, şahlar gəldi-gedərdir, söz mülkünün şahı olmaq isə daha böyük səlahiyyətdir (Sonralar bu motiv Füzulinin məşhur qitəsində öz parlaq təcəssümünü tapacaq).

Şairliyi şahlıqdan üstün tutan Xaqani məşhur ”Çörək” şeirində dövrünün şairlərininin ”çörək uğrunda” mübarizəsini məddahlığın baş alıb getdiyi zəmanənin naqisliyi kimi dərk edirdi.

*Mən bir pələng*
*ikən it olum, bir də it kimi*
*Qaçsam çörək dalınca*
*bu gündən sonra, çörək.*

*Şahdan çörək uman dilim*
*olsun dilim-dilim,*
*Verdi çörək yerinə*
*mənə yüz cəfa çörək!*

Xaqani yaradıcılığının 1 nömrəli tədqiqatçısı Qafar Kəndli yazır ki: ”Xaqaninin tutduğu bu yol-”sözü çörəyin tabeliyindən çıxarmaq istəyi” o illərin düşüncə və yaradıcılıq həyatı üçün çox güclü bir irəliləyiş idi. Bu yolu o illərin qabaqcıl poeziyası yüksək dəyərləndirirdi. Cəmaləddin İsfahani Xaqaniyə göndərdiyi mənzum məktubunda şairin tutduğu bu yeni yolu yüksək sözlərlə dəyərləndirərək, sözü çörəyin tabeliyndən çıxardığı üçün şairi alqışlayırdı: ”Tanrıya şükür olsun ki, sən o kimsədən ayrılmısan ki, şeir bizim kimi iki çörəkdən ötrü alçaqlara aparır-satır”.

Xaqani ilkin olaraq ideal şair obrazı ilə bağlı düşüncələrini bölüşür və sonralar onun bu poetik mülahizələr Nizaminin poemalarında daha da inkişaf etdirilir. ”Düşmənləri məzəmmət” şeirində Xaqani yazırdı:

*Bəd niyyətli adamların*
*yaxşılığı olar bəd,*
*Yalanlarla fəxr etməyi*
*onlar etmişdir adət.*
*Paxıllıqdan qızdırmaya,*
*titrətməyə düşüblər,*
*Onlar mənim paltarımı*
*geyinsələr yox zərər.*
*Evlərindən çölə çıxmaz*
*yazdıqları şeirlər,*
*Bu şairlər rədd olunan*
*dəvətlərə çox bənzər.*
*Doğmaz quru təblərindən*
*təravətli şeirlər,*
*Onlar suda qərar tutan*
*nilufərə bənzəyər.*
*Onlar özü qidalanır mənim*
*meyvələrimdən,*
*Qara qarğa əncir yesə,*
*heç təəccüb etmə sən.*
*Çörək üçün gen qapımı*
*döyür onlar, doğrusu,*
*Dən verməsəm, tikdikləri*
*dəyirmanı yıxar su.*

Üçüncü motiv: Sözün gözəlliyi, məna dərinliyi. Xaqani böyük söz ustası idi və orta əsrlər poeziyasında sözü ehya edən, ona dirilik bəxş edən şairlər sırasında birincilərdəndir. Onun qəzəl və qəsidələrində, hətta mədhiyyə ruhlu şeirlərində də qüdrətli, möhtəşəm şair istedadının şahidi oluruq. ”Hər səhər qalxar göyə ah ilə əfğanım mənim, Qərq olar qanda şəfəq tək çeşmi-giryanım mənim”. ”Oxşayır kündə ayağımda dəyirman daşına, Qanlı göz yaşımla işlər bu dəyirmanım mənim”. ”Bax, Məryəmin sapı kimi ikiqatdır bədənim, İsadakı iynə kimi təkcədir qəlbim mənim”-bədii təsvirin və təxəyyülün sonsuzluğuna heyrət edirsən. Qafar Kəndli haqlı olaraq qeyd edir ki, Xaqaninin ”Qəsideyi-Şiniyyə”sinin, eləcə də ”Mədain xərabələri”nin təsiri altında Yaxın Şərq ədəbiyyatında onlarla nəzirələr, ruhca ona yaxın əsərlər qələmə alınmışdır. Xaqani poeziyasının döyüşkən ruhu, azadlıq çağırışları əksər Şərq şairlərini Xaqanidən ustad dərsləri mənimsəməyə sövq etmişdir.

Məşhur ”Fəxriyyə” şeirində Xaqani yazırdı:

*Sənətkarlın nədir? bilmək istəsən,*
*Gəl onun sirrini sən məndən öyrən.*

Nə idi o sirlər? Xaqaninin nə poetika, nə ədəbiyyat nəzəriyyəsi xüsusunda heç bir əsəri yoxdur, amma onun poeziyası həm müasirləri, həm də sonrakı nəsillər üçün sözü necə incələməyin, onu ehya etməyin sirlərini bəyan etdi. Həqiqi sözü yalanlardan seçən Xaqani üzünü müasirlərinə tutub deyirdi ki:

*Qulaq as! Sənə bir nəsihətim var;*
*Etibarsız olur bal rəngli ruzgar.*
*Durma kölgəsində ikirənglinin,*
*Olma heç nəhəngin felinə əmin.*
*Şirin öpüş kimi bir an xoş gələn*
*Bəhərsiz işlərlə məşğul olma sən!*

**Xaqaninin şeir, sənət haqqında fikirləri: məddahlığı pisləməsi, şair şəxsiyyətini uca tutması, üsyankarlığı, şahların naqis əməllərinə qarşı mübarizəsi, həqiqətin yalan üzərində qələbəsini bədii əsərlərində reallaşdırması, sözün məna zənginliyinə can atması əsl şair qüdrətinin təzahüruydu. Və ən başlıcası, onun simasında ədəbi-estetik fikrimizin bu miqyasda ilk qələbəsiydi!**